# Prof. Dr. Tofiq Əbdülhəsənov

## Kişisel Bilgiler

**E-posta:** tofig_abdulhasanov@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/tofig_abdulhasanov

**Uluslararası Araştırmacı ID'leri**
ORCID: 0000-0002-8180-9180

## Biyografi

30 dekabr 1955 – ci ildə Neftçala rayonunun Pirəbbə kəndində anadan olmuşam. Doğulduğum kənddə ibtidai məktəbi, Yuxarı Qaraymanlı kəndində isə orta məktəbi əla qiymətlərlə bitirmişəm. 1973 – cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1981-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişəm. Filoloq, Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasına yiyələnmişəm. 1974-1976 – cı illərdə ordu sıralarında xidmət etmişəm. 1985-1990- cı illərdə Bakıdakı "Gənclik" nəşriyyatında redaktor vəzifəsində çalışmışam. 1990-cı ilin dekabrından 1992- ci ilin sentyabrına kimi keçmiş Azərbaycan Respublikası Ali Sovetinin orqanı olan "Həyat" qəzetinin söbə redaktoru vəzifəsində işləmişəm. 1992 – cu ildən 2002 – ci ilin iyulunadək "Azərbaycan" qəzetində şöbə müdiri olmuşam.Rəsmi dövlət qəzetlərinin –"Azərbaycan" və "Respublika"qəzetlərinin səhifələrində 100-lərlə elmi və publisistik məqalələrim dərc olunub və onların əksəriyyəti Prezident kitabxanasına daxil edilib. 1993 – cü ilin sentyabrından 2002 – ci ilin sentyabrınadək Azərbaycan Dövlət İqtisad Universitetində əvəzçiliklə yarım ştat müəllim, baş müəllim, dosent vəzifəsində çalışmışam. 2006 – cı ildən isə Universitetin "Azərbaycan dili" kafedrasının müdiriyəm. Filologiya elmləri doktoru, professoram. 60-a yaxın elmi məqalənin, 5 dərsliyin, 6 dərs vəsaitinin, 10 proqramın, 4 monoqrafiyanın müəllifiyəm. Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət İşçisiyəm. UNEC –in 90-illik yubileyi ilə əlaqədar ölkə Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişəm. Azərbaycan Yazıçılar və Jurnalistika birliklərinin üzvüyəm. "H.Zərdabi" və "Qızıl qələm" mükafatları laureatıyam. Ailəliyəm,üç övlad atasıyam.

## Diğer Dergilerde Yayınlanan Makaleler

I. **Educational Tourism as a Source of Linguistic and Cultural Competence of Foreign Students on the Example of Azerbaijan**
   Abdulhasanli T., Rzayeva G., Amirova A., Huseynova Z.
   Journal of Environmental Management and Tourism, cilt.14, sa.4, ss.2077-2082, 2023 (Scopus)

## Metrikler

Yayın: 2